**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞİMALİ AZƏRBAYCANDA QAÇQINLARA DAİR DÖVLƏT SİYASƏTİ (1914-1920-ci illər)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Nərmin Əliyar qızı Xanməmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, dosent
**Fərhad Rafiq oğlu Cabbarov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Kamran Novruz oğlu İsmayılov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Abdulla Nəriman oğlu Mustafayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: tarix elmləri doktoru, professor
_______________ **Şahin Fazil oğlu Fərzəliyev**

Dissertasiya şurasının
elmi katibi: tarix elmləri doktoru, dosent
_______________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
_______________ **Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyanın qlobal problemlərindən biri olan qaçqınlıq meydana gəlmə səbəbləri, geopolitik mənbələri və istiqamətləri, siyasi və sosial-iqtisadi nəticələri və s. kimi məsələləri özündə birləşdirən mürəkkəb bir problemdir. Bu kompleksdə qaçqınlara dair siyasətin xüsusi yeri vardır.

Qaçqınlar, onların hüquqi statusu və haqlarının qorunması məsələləri bir sıra beynəlxalq sənədlərdə əksini tapmışdır. Bu sahədə ilk təşəbbüslər 1921-ci ildə Millətlər Cəmiyyətində başlamış, İkinci Dünya müharibəsindən sonra problemin vacibliyi nəzərə alınaraq, 1951-ci ilin iyulunda Cenevrədə diplomatik konfransda Qaçqınların Statusuna dair Konvensiya qəbul olunmuşdur. Həmin konvensiyaya 1967-ci il Protokolu ilə düzəliş əlavə edilmişdir. 1951-ci il Konvensiyası əvvəlcə İkinci Dünya müharibəsindən sonra avropalı qaçqınların qorunması ilə məhdudlaşsa da, 1967-ci il Protokolu ilə əhatə dairəsi genişləndirilərək bütün dünyaya aid edilmişdir. Bu sənədlər hazırda da qaçqınlara dair əsas təməl aktlar hesab olunur[1]. Qaçqınlar probleminə diqqətin cəlb edilməsi məqsədi ilə BMT Baş Assambleyası 4 dekabr 2000-ci ildə 20 iyunu Ümumdünya qaçqınlar günü elan etmişdir[2].

Azərbaycan 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərindən başlayaraq bir milyondan yuxarı qaçqını ilə dünya miqyasında ən çox qaçqına malik ölkələr sırasında olmuşdur. Ermənistandan azərbaycanlıların kütləvi şəkildə deportasiyası ilə birgə, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərindən qovulan azərbaycanlılardan ibarət məcburi köçkünlər kon-

---

[1] THE 1951 CONVENTION relating to the Status of Refugees AND ITS 1967 PROTOCOL. UNHCR, September 2011//https://www.unhcr.org/about-us/background/4ec262df9/1951-convention-relating-status-refugees-its-1967-protocol.html

[2]Всемирный день беженцев. 2022 / URL:https://file.liga.net/holidays/vsemirnii_den_bejencev

tingenti də yaranmışdır. Özbəkistandan qaçan Məhsəti türkləri (50 min nəfərdən çox) istisna olmaqla, qaçqın və məcburi köçkünləri, əsasən, etnik azərbaycanlılar təşkil etmişdir.

Azərbaycan Respublikası qaçqınlar probleminin həlli sahəsində müvafiq tədbirlər hazırlamağa nail ola bilmişdir. Bunun nəticəsində ölkədə tədricən xarici dövlətlərin qaçqınlara dair yardım proqramlarından qaçqın və məcburi köçkünlər üzrə milli siyasətə keçilmişdir. Bu sahədə dövlətin bütün resursları səfərbər edilməklə yanaşı, ciddi qanunvericilik bazası yaradılmış, strukturlaşma həyata keçirilmiş (1989-cu ildə Dövlət komitəsi yaradılmış, sonralar quruluşu və statusu təkmilləşdirilmişdir) və bu problem daima dövlətin diqqətində olmuşdur. Təsadüfi deyil ki, 1994-cü il noyabrın 22-24-də Bakıda "Qaçqınlara dair qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə həsr olunmuş beynəlxalq konfrans" keçirilmişdir[3].

Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi dövründə (2020, 27 sentyabr-10 noyabr) Ermənistan üzərində tarixi qələbəsi və işğal altında olan torpaqların azad edilməsi ilə müasir qaçqınlıq tarixində Böyük qayıdış dövrünün əsası qoyulmuşdur. Qaçqınların ilk qrupunun 19 iyul 2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndinə qayıtması ilə Böyük qayıdış başlanmışdır[4] və uğurla davam etməkdədir. Ermənistandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qaytarılması sahəsində də xüsusi siyasi xətt müəyyən edilmişdir. Prezident İlham Əliyevin 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə irəli sürdüyü müddəalara uyğun olaraq Qayıdış konsepsiyası hazırlanmışdır. Beləliklə, müasir dövrdə dünyada və Azərbaycanda qaç-

---

[3] Qaçqınlara dair qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə həsr olunmuş beynəlxalq konfrans. Bakı, 1994

[4] Zəngilanın Ağalı kəndinə qayıdış- Həyəcanlı anlar. 2022 /URL:https://apa.az /az/apa-tv/xeber/xeberler/zengilanin-agali-kendine-qayidis-heyecanli-anlar-72978

qınlıq problemi mühüm yer tutur və bu problemin həlli prioritet istiqamət təşkil edir.

Qaçqınlıq probleminin həlli onun keçmişinin və bu sahədə mövcud olan tarixi təcrübənin öyrənilməsini zəruri edir. Qaçqınlığın tarixində I Dünya müharibəsi və ondan sonrakı dövr əsas yerlərdən birini tutur. Bu dövrdə Şimali Azərbaycanda da qaçqınlıq xüsusi problem kimi meydana gəlmiş, səbəbləri və s. göstəricilərinə görə, dünya üzrə ümumilik təşkil etsə də, dövlət siyasəti baxımından özünəməxsus xüsusiyyətləri ilə daha çox fərqlənmişdir. Belə bir vacib problem indiyədək xüsusi tədqiqat predmeti olmamışdır.

Tədqiqatın xronoloji çərçivəsi I Dünya müharibəsinin başlanmasından Azərbaycanda sovet hakimiyyətinin qurulmasınadək olan dövrü (1914-1920-ci illər) əhatə edir. Bu dövrdə qaçqınlığın bir problem kimi meydana gəlməsi və mövcudluğuna baxmayaraq, siyasi sistemdə bir-birini əvəz edən dəyişikliklər qaçqınlıq probleminə münasibətdə də özünü göstərir. Belə ki, Rusiya imperiyasında çar hakimiyyəti və onu əvəz edən Müvəqqəti hökumətin, imperiyaya son qoyan bolşevik hakimiyyətinin qaçqınlara dair siyasəti və onun həyata keçirilməsində fərqlər var idi. İmperiyanın süqutundan sonra Zaqafqaziyada (Cənubi Qafqaz) meydana gələn hakimiyyət qurumlarının – Zaqafqaziya hökuməti və Bakı soveti dövründə də vəziyyət yeni istiqamət alır. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə ölkədə qaçqınlıq probleminə dair hərtərəfli tədbirlər görülməyə başlayır. Bütün bunlar göstərilən xronoloji yanaşmanı elmi baxımdan zəruri edir.

Qaçqınlığın I Dünya müharibəsi dövründə böyük miqyas alması, Rusiya imperiyasının dağılmasından sonra yeni yaranan tarixi şəraitdə daha da genişlənməsi, siyasi və sosial-iqtisadi həyata təsirinin artmasına baxmayaraq onun öyrənilməsi vəziyyəti bu prosesin mahiyyətinə adekvat olmamışdır. Rusiyada I Dünya müharibəsi zamanı yaranan qaçqınlıq haqqında ilk araşdırmalar elə həmin dövrdə meydana gəlmiş, lakin imperiyanın dağılması və yeni qurulan sovet dövləti zamanı ona diqqət azalmış, sonra isə tamamilə unudulmuşdur. Yalnız, 1990-cı illərdən I Dünya müharibəsi və so-

vet dövlətinin ilk dövründəki qaçqınlıq və qaçqınlara dair tədqiqatlar aparılmağa başlanmışdır[5]. Əsas prioritet istiqamətlər kimi qaçqınlığın coğrafi-köçürülmə mahiyyəti, etnik göstəriciləri, xeyriyyəçiliklə əlaqəsi və s. qeyd edilə bilər.

Şimali Azərbaycanda 1914-1920-ci illərdə qaçqınlığa dair ilk münasibətlər dəyişən xronoloji və siyasi şəraitə uyğun olaraq meydana gəlmişdir[6]. Rusiyanın sovet dövrü tarixindəki kimi Azərbaycanın sovetləşməsindən sonra burada da qaçqınlıq problemi üzrə araşdırmalar, demək olar ki, aradan qalxmışdır. Hətta, dövrə dair müvafiq araşdırmalar və ümumiləşdirici əsərlərdə də bu problemin üzərindən keçilmişdir[7].

SSRİ-nin dağılması, xüsusilə, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və azərbaycanlıların kütləvi şəkildə deportasiyası nəticəsində qaçqınlığın meydana gəlməsi bu prosesin tarixinin öyrənilməsi zərurətini irəli sürdü. Bununla əlaqədar olaraq Azərbaycan tarixşünaslığında qaçqınlıq probleminə dair xüsusi araşdırmalar işıq üzü gördü. H.Verdiyevanın araşdırmalarında Azərbaycanda qaçqınlığın tarixi kökləri, Qafqazın qaçqın müsəlmanları[8], B.Əzizin tədqiqatlarında isə Zaqafqaziya Seymi və Azərbaycan Cümhuriyyəti dövründə qaçqınlıq probleminin öyrənilməsinin

[5] Курцев А.Н. Беженцы первой мировой войны в России (1914-1917) // Вопросы истории, 1999, №8, с. 98-113; Суржикова Н.В., Михалев Н.А., Пьянков С.А. Российского беженство 1914-1922 годов в контекстах новейших отечественной и зарубежной историографий//Вестник Пермского Университета, 2012. Вып.3(20), 14-152.

[6] Беженский вопрос на Кавказе // Беженцы и выселенцы. М., 1915; См.: Гаджиева Л.О. Беженцы Первой мировой войны на Кавказе (по материалам Бакинской периодической печати) //Austrian Journal of Humanities and Social Sciences, 2015, с. 16-20, ее же, Из истории русскоязычной периодической печати Азербайджана (1871-1918). Баку: 2017, с.340-355.

[7] Bax: Azərbaycan tarixi. Üç cilddə. c.2. Bakı, 1966.

[8] Verdiyeva H.Y. Azərbaycanda qaçqınlıq probleminin tarixi köklərinə dair // Zəka j., 1997, №3-4; ее же, Первая мировая война и беженцы-мусулмане Кавказа// İrs (Наследие). 2010, №2 (44), с.28-33; ее же, От составителя // Неизвестные страницы истории: беженцы-мусульмане (1918-1920 гг.). Баку, 2018, с. 9-34.

mənbələri, qaçqınların yerləşdirilməsi sahəsində siyasət və s. nəzərdən keçirilir[9].

Azərbaycanın Cümhuriyyət dövrü tarixinə dair fundamental elmi araşdırmalar aparan K.İsmayılov qaçqınlıq problemini də tədqiq etmişdir[10]. N.Mustafa[11] və A.Mustafayev[12] də Azərbaycan Cümhuriyyəti dövründə qaçqınlara dair araşdırmalar aparmışdır.

1914-1920-ci illərdə Şimali Azərbaycanda qaçqınlığın müxtəlif məsələlərinə xüsusi araşdırmalar ilə eyni zamanda, həmin dövrə həsr edilmiş konkret və ya ümumi tarixi tədqiqatlarda da rast gəlmək mümkündür. M.Qasımovun (Qasımlı) I Dünya müharibəsi dövründə böyük dövlətlərin Azərbaycan siyasətinə dair üç cildlik kitabında qaçqınlıq probleminə də geniş yer ayrılır, elmi dövriyyəyə cəlb edilmiş yeni arxiv sənədləri əsasında hərtərəfli şəkildə öyrənilir[13]. T.Dilməqaninin I Dünya müharibəsində Güney Azərbaycana həsr edilmiş kitabında azərbaycanlılara qarşı soyqırım kontekstində qaçqınlığa dair bəzi məsələlərə də toxunur ki, bu Şi-

---

[9] Əzizov Boran (Boran Əziz) ADR-in qaçqınları yerləşdirmək sahəsində fəaliyyəti //Tarix və onun problemləri, 2000, s. 99-102; Yenə onun, Azərbaycan Xalq Cümhuriyyəti və qaçqınlar problemi. AXC-nin aktual problemləri, beynəlxalq elmi sessiyanın materialları. Bakı, mart-may 2003, s. 100-102; Yenə onun, Cümhuriyyət parlamenti və qaçqınlar məsələsi (1920-ci il 05-08 yanvar iclaslarının protokolları əsasında) //Şərqdə İlk Demokratik Respublika (“28 may-Respublika günü” ilə əlaqədar elmi-praktik konfrans). Məqalələr toplusu. Bakı, 2014, s. 169-176; Yenə onun, Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları. Bakı, 2020 və s.

[10] Исмаилов К. Обустройство беженцев-азербайджанцев из Кавказской Армении в Азербайджанской Демократической Республике: 1918-1920 годы. //Irs-Наследие. 2011, № 6 (54), с. 44-48; İsmayılov K. Azərbaycanın Zəngəzur bölgəsi 1917-1920-ci illərdə. Bakı, 2018

[11]Mustafa N. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaçqınlar problemi// “Xalq qəzeti”. 25 may 2012-ci il. № 114, s. 6

[12]Mustafayev A. Azərbaycan Xalq Cümhuriyyəti və Qaçqınlar problemi (1918-1920-ci illər). //Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası. cild 9, № 1. Naxçıvan 2013, s. 40-48.

[13] Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). Üç hissədə. I hissə (1914-cü il avqust-1917-ci il oktyabr). Bakı, 2000.

mali Azərbaycan ilə müəyyən müqayisələr baxımından maraq doğurur[14].

Şimali Azərbaycanda, xüsusilə 1918-1920-ci illərdə qaçqınlığın əsas mənbələrindən biri Ermənistan Respublikasının azərbaycanlılara qarşı soyqırımı olmuşdur. Bu tədqiqatlarda da qaçqınlıq probleminə müəyyən yer ayrılmışdır[15].

Qaçqınların problemlərinin həlli istiqamətində, hər yerdə olduğu kimi Şimali Azərbaycanda da xeyriyyə təşkilatları fəal iştirak etmişdir. Qaçqınlığa dair bəzi məsələlər bu tədqiqatlarda da əks olunmuşdur. N.Məmmədova, [16] C. Cavadov, [17] C. Rüstəmovanın [18] araşdırmaları bu qəbildəndir.

Qaçqınlar ilə bağlı məsələlərin müəyyən qismi də Azərbaycanın bölgələrinin tarixinə dair araşdırmalarda verilmişdir[19]. Çoxcildlik Azərbaycan və Naxçıvan tarixi kitablarında da Şimali Azərbaycanda qaçqınlıq probleminin meydana gəldiyi tarixi şərait və onun müxtəlif məsələlərinə yer ayrılmışdır[20].

---

[14] Dilməqani T.M. Güney Azərbaycan Birinci dünya müharibəsi illərində-Soyqırım. Bakı, 2010.

[15] Нифталиев И. Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920). Баку, 2014; Mustafa N. İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920). Bakı, 2017; Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998 və s.

[16] Məmmədli N. Birinci Dünya müharibəsində Qafqaz cəbhəsi. Qaçqınlar və hərbi əsirlər. Bakı, 2020

[17] Cavadov C. Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə). Bakı, 1999.

[18] Рустамова Дж. Общественно-политическая деятельность национальной буржазии в начале XX века// Tarix və onun problemləri. 2012, №4, с. 40-43.

[19] Həsənov H. Silinməz adlar sağalmaz yaralar. Bakı, 1997; Kazımbəyli İ. Qərbi Azərbaycan (İrəvan bölgəsi): sosial-iqtisadi və siyasi tarixi (XIX – XX əsrin əvvəlləri). Bakı, 2017; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996; Nərimanoğlu H. Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular. Bakı, 2012; Yenə onun, Azərbaycanın Zəngəzur bölgəsinin demoqrafik vəziyyətində dəyişikliklər (XIX əsr- XX əsrin 20-ci illəri). Tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat. Bakı, 2018 və s.

[20] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı, 2008; Naxçıvan tarixi. Üç cilddə, c. 2, Naxçıvan, 2014.

Şimali Azərbaycanda qaçqınlığın, xüsusilə, I Dünya müharibəsi dövrünə xarici tarixşünaslıqda da rast gəlmək mümkündür. Ermənistan tarixşünaslığı obyektiv araşdırmalar əvəzinə,“erməni qaçqınları” haqqında mif yaratmağa çalışmış, hər bir sahədə olduğu kimi burada da ciddi təhriflərə (qaçqınların meydana gəlməsi səbəbləri, sayı və s. üzrə) yol vermişdir. Bu tarixşünaslıq üçün qaçqınlığın etnizasiyası daha çox xarakterikdir.

Rusiya tarixşünaslığı Qafqazda, o cümlədən Şimali Azərbaycanda qaçqınlığa dair müəyyən məsələlərə toxunmuşdur. Burada əvvəla, qaçqınların işləri üzrə mövcud strukturların fəaliyyəti, qaçqınlığın meydana gəlməsinin səbəbləri, qanunvericilik fəaliyyəti və s. məsələlər başlıca yer tutur[21]. Rusiya tarixşünaslığında bu problemin öyrənilməsində Kursk tarixçilərinin rolu nəzərə alınaraq, xüsusi Kursk məktəbi ayrılır. A.N.Kurtsev Kursk məktəbinin tanınmış nümayəndəsi olub, qaçqınlıq probleminin öyrənilməsinə bir sıra yeniliklər (qaçqınların miqrasiya kontekstində nəzərdən keçirilməsi və s.) gətirmişdir[22]. I Dünya müharibəsi dövrünün qaç-

---

[21] Щепкин М. Беженцы и организация помощи им в связи с работами Особого совещания. Москва, 1916, 100 с.; Ильин А. Об Особом совещании по устройству беженцев (1915г. - февраль 1917 г.) //Известия высших учебных заведений. Серия: Правоведение. Л., 1991, № 5, с. 49-55; Белова И. Первая мировая война и Российская провинция. 1914-февраль 1917 г. Москва, 2011, 288 с.; ее же, Белова И. Вынужденные мигранты: беженцы и военнопленные первой мировой войны в России. 1914-1925 гг. ( По материалом центральных губерний Европейской России) //Диссертация. Брянск, 2014, 461 с.; Михалев Н., Пьянков С. Беженцы Первой мировой войны в Российской империи: численность, размещение, состав // Уральский Исторический вестник №4 (49), 2015, с. 95-105; Керзум А. Министерство Государственного Призрения http://encblago.lfond.spb.ru/showObject.do?object=2806468425; Матханова Н. Бюро печати Татьянинского комитета и собирание воспоминаний беженцев. http://sibistorik.ru və s.

[22] Курцев А. Беженство // Россия и первая мировая война: материалы международного научного коллоквиума, СПб., 1-5 июня 1999, с. 129-146; его же, Беженцы первой мировой войны в России (1914-1917) // Вопросы истории, 1999, №8, с. 98-113.

qınlıq probleminin öyrənilməsində Belorusiya tarixçilərinin də mühüm rolu vardır[23].

Osmanlı imperiyasında I Dünya müharibəsi dövründə qaçqınlıq, xüsusilə Azərbaycan xeyriyyə təşkilatlarının türk-müsəlman qaçqınlarına köməyi, Osmanlı hökumətinin qaçqınların təşkili üzrə fəaliyyəti və s. məsələlər Türkiyə tarixşünaslığında tədqiq edilmişdir.[24]

Ümumiyyətlə qaçqınlıq, o cümlədən Rusiya imperiyasında qaçqınlıq probleminin öyrənilməsində ingilis tarixçisi P.Qetrelin xüsusi rolu qeyd edilməlidir[25]. O xronoloji yanaşma ilə tematik təhlili qarşılaşdıraraq, qaçqınlar kimdir, onlar özlərini və başqalarını necə müəyyən edirdilər, qaçqın böhranı necə inkişaf edirdi və s. bu kimi bira sıra sualları irəli sürmüşdür[26].

Beləliklə, mövzunun öyrənilmə səviyyəsindən aydın olur ki, istər ümumilikdə, istərsədə Şimali Azərbaycanda 1914-1920-ci illərdə qaçqınlıq probleminin bir sıra məsələləri tədqiq edilsə də, bu problem üzrə dövlət siyasəti xüsusi tədqiqata çevrilməmiş və müstəqil şəkildə öyrənilməmişdir.

Dissertasiya işinin mənbə bazası içərisində qaçqınlara dair dövlət siyasətini müəyyən edən hüquqi-siyasi sənədlər və kargüzarlıq sənədləri mühüm əhəmiyyətə malikdir. Tədqiq edilən dövrdə çar hökuməti, Müvəqqəti hökumət, Zaqafqaziya hökuməti və Azərbaycan Cümhuriyyəti mövcud olduğu üçün hər bir dövrə dair bu tip sənədlər müəyyən edilmiş və nəzərdən keçirilmişdir.

---

[23]Утгоф В. Белорусские беженцы Первой мировой войны в 1914-1922 гг. СПб., 2003 və s.

[24]Sultanof H.P. Bakü Müslüman Cemiyet-i Hayriyesi Harpzedelere Yardım Şubesinin Faaliyeti // Kardaş Kömeği, Bakü, 1917; Aslan B. 1. Dünya Savaşı Esnasında “Azerbaycan Türkleri”nin “Anadolu Türkleri”ne “Kardaş Kömeği (Yardımı)” ve Bakü Müslüman Cemiyet-i Hayriyesi”. Ankara, 2000 və s.

[25]Gatrell P. Whole Empire Walking: Refugees in Russia during World War I. Bloomington and Indianopolis, 1999.

[26] Суржикова Н., Михалев Н., Пьянков С. Российского беженство 1914-1922 годов в контекстах новейших отечественной и зарубежной историографий., с.14-152.

Belə bir yanaşma eyni problemə müxtəlif dövlətlərin münasibətini və onun mahiyyətini dinamikada izləməyə imkan yaratmışdır.

I Dünya müharibəsi ümumən müharibə aparan dövlətlərdə, o cümlədən Rusiya imperiyasında hərbi dövrün qanunvericiliyinə ciddi təkan verdi. Bu qanunvericilik aktları içərisində qaçqınlıq problemi də mühüm yer tuturdu. İkicildlik "Hərbi dövrün ən mühüm qanun, fərman və sərəncamları" adlı məcmuədə 1914-cü ilin iyul ayından 1915-ci ilin sonlarınadək olan qanunlar və s. sənədlər toplanmışdır[27]. Bu məcmuə qaçqınlara dair qanunvericiliyin formalaşmasının gedişini hərbi qanunvericilik kontekstində araşdırmağa imkan verir.

Qaçqınlar məsələsinin miqyasının genişlənməsi bu problemə dair qanun və digər rəsmi sənədlərin ayrıca toplu şəklində nəşr edilməsi zərurəti yaratmışdır. Bunu nəzərə alan Ümumrusiya şəhərlər ittifaqı Baş komitəsinin hüquq şöbəsi qaçqınlar haqqında qanun və sərəncamları xüsusi toplu şəklində çap etmişdir. Topluya ön sözdə qeyd edilirdi ki, müasir müharibə dövlət qarşısında bir sıra yeni məsələlər qoymuşdur ki, onların sırasında qaçqınlıq problemi ən mühüm yerlərdən birini tutur. Bu toplu 1916-cı il aprelin 1-dək olan qanun və sərəncamları əhatə edirdi[28]. Çar hökumətinin qaçqınlara dair siyasətinin həyata keçirilməsində dövlət orqanlarından Daxili İşlər Nazirliyi böyük səlahiyyətlərə malik idi. Nazir A.Xvostov tərəfindən 1916-cı il martın 2-də təsdiq edilmiş qaçqınların təşkili üzrə rəhbər əsasnamə bu sahədə direktiv xarakter daşıyırdı. 32 benddən ibarət olan əsasnamə qaçqınların təşkili ilə əlaqədar bütün məsələləri tənzimləyirdi[29] Rusiya imperiyası Nazirlər Şurasının xüsusi  jurnalları da çar hökumətinin qaçqınlara dair si-

---

[27] Важнейшие законы, указы и распоряжения военного времени. В 2-х тт. Т.1-2. Пг., 1915-1916.

[28]Законы и распоряжения о беженцах. Вып.1. Изд. 2-е, значительно доп. М., 1916; Вып. 2-й. М., 1916.

[29]Руководящее положение по устройству беженцев. Пг., 1916.

yasətinin öyrənilməsində  mühüm hüquqi sənədlər sırasına daxildir[30].

Çarizmin qaçqınlara dair siyasətinin həyata keçirilməsində vacib yer tutan Tatyana komitəsinin[31], Ümumrusiya ictimai təşkilatlarından şəhərlər ittifaqının  (1914, 8-9 avqust) və zemstvo ittifaqının (1914, 11 avqust) sənədləri də mühüm mənbələrdəndir [32].

Çar hakimiyyəti dövründə ümumən əhaliyə, o cümlədən qaçqınlara dair bəzi statistik materiallar qaçqınların siyahıya alma materiallarında əks olunmuşdur[33].

Çar hökumətini əvəz edən Müvəqqəti hökumət də qaçqınlar problemi üzrə müəyyən addımlar atmışdır. Müvəqqəti hökumətin bu sahədəki siyasəti bir sıra qanunvericilik aktlarında və yeni yaradılan Himayədarlıq nazirliyinə aid sənəd və materiallarda əksini tapmışdır[34].

---

[30]Особые журналы Совета министров Российской империи. 1909-1917 гг. М., 2006.

[31]Отчет о деятельности особого отдела комитета Ее Императорского Высочества Великой Княжны Татьяны Николаевны по регистрации беженцев в 1915г. Пг., 1916; Комитет Е.И. В. Великой княжны Татьяны Николаевны для оказания временной помощи пострадавшим от военных бедствий. 14 сентября 1914г. – январь 1916 г. Т. 1, Пг., 1916; Комитет  по оказанию временной помощи пострадавшим от военных бедствий: Отчет Особого отдела по регистрации беженцев. Пг., 1916; Перепись беженцев в Петрограде. Пг., 1916; Справочник об организациях и учреждениях, оказывающих помощь беженцам. Особый отд. ком-та е.и.в. вел. кн. Татьяны Николаевны по регистрации беженцев. [в 2 томах] / -Вып. 2. Петроград: Особый отд. Комитета е. и. в. вел. кн. Татьяны Николаевны по регистрации беженцев. 1916.

[32]Всероссийский союз городов: Состав главных и местных комитетов. М., 1916, 19 с.; Главный комитет ВЗС: Учреждения Всероссийского земского союза. Окт. 1916. М., 1917; Краткий очерк деятельности Всероссийского Земского союза. М., 1916.

[33]Перепись беженцев в Петрограде. Пг.:Изд-е Комитета е.и.в, великой княжны Татьяны Николаевны, 1916; Кавказский календарь на 1914-1917 гг. Тифлис, 1913.

[34] Общее собрание служащихъ въ земскомъ отделе и отделе по устройству беженцев МВД // Вестник Временного Правительства. 1917, 9 марта, № 4; Упразднение опекунскаго совета // Вестник Временного Правительства.

Zaqafqaziya hökumətinin qaçqınlara dair siyasətinin müəyyən edilməsində Seymin stenoqrafik hesabatları əsas yer tutur[35]. Zaqafqaziya Seyminin müsəlman fraksiyasının protokollarındakı qaçqınlara dair müzakirələr Azərbaycan nümayəndələrinin bu problemə dair mövqeyini və fəaliyyət istiqamətlərini müəyyən etməyə imkan verir[36].

Azərbaycan Cümhuriyyətinin yaranması ilə Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasətində köklü dəyişikliklər əmələ gəldi. Bu məsələlər Azərbaycan Milli Şurasının protokollarında [37], parlamentin təşkilindən sonra isə onun stenoqrafik hesabatlarında [38] öz əksini tapır. Cümhuriyyət hökumətinin qaçqınlıq problemi üzrə işləri onun qanunvericilik fəaliyyətinə dair rəsmi sənədlərdən aydın olur[39]. Cümhuriyyətin həyatının müxtəlif sahələri, o cümlədən qaçqınlara dair siyasət və bir sıra faktik materiallar Azərbaycan Respublikasının təqvim-ünvan adlı toplusunda verilmişdir[40].

Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasəti haqqında müvafiq sənəd və materiallar həm arxivlərdə mühafizə olunan, həm də nəşr edilmiş toplularda da vardır. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA), Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA) fondlarında, həmçinin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Ar-

---

1917, 11 марта. № 6; Судьба Татьянинскаго комитета// там же, 1917,14 марта, № 8, с. 3; Указы временного Правительства, данные правительствующему сенату// там же, 1917, 19 марта, № 13, с. 1; Совещание по устройству беженцевъ// там же, с. 1; Заботы о беженцахъ// там же, 1917, 21 марта, № 14, с. 2.

[35] Закавказский Сейм. Стенографический отчет. Тифлис, 1918.

[36] Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Bakı, 2006.

[37] Yenə orada.

[38] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I-II cc. Bakı, 1998.

[39] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (Сб. документов). Баку: издательство “Азербайджан”, 1998.

[40] Адрес-календарь Азербайджанской Республики на 1920 год. Под. ред. А.М.Ставровского. Баку, 1920.

xivinin (ARİİİSSA) fondlarından tədqiq edilən problem üzrə xeyli yeni sənəd aşkar edilmiş və ilk dəfə elmi dövriyyəyə cəlb olunmuşdur.

Nəşr edilmiş sənəd toplularından həm Azərbaycan, həm də Türkiyə arxivləri əsasında tərtib edilmiş məcmuələri göstərmək olar[41].

Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasətinin tədqiqində dövri mətbuat da mühüm mənbə olmuşdur. Onların içərisində həm Rusiya imperiyasının paytaxtında nəşr olunan («Вестник Временного Правительства» və s.), həm də Bakıda çıxan rəsmi və ya digər mətbuat orqanlarını («Баку», «Каспий», «Азербайджан», "Azərbaycan" və s.) qeyd etmək olar. "Azərbaycan" qəzetində vaxtilə nəşr edilmiş parlament hesabatları və şərhlər əsasında çoxcildlik tərtib edilmişdir[42].

Göstərilən mənbələr problemin hərtərəfli və obyektiv öyrənilməsi üçün mühüm baza yaratmağa imkan vermişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini qaçqınlar təşkil edir. Qaçqınlar və ya bir proses olaraq qaçqınlıq səbəbləri, baş verməsi və qayıdış məsələləri çərçivəsində geniş dairəni əks etdirir. Bu baxımdan dissertasiya işinin predmetini qaçqınlıq probleminin ən mühüm məsələlərindən biri olan dövlət siyasəti, daha konkret deyilsə, 1914-1920-ci illərdə Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Şimali Azərbaycanda I Dünya müharibəsi dövründə qaçqınlıq probleminin meydana gəlməsi və Rusiya imperiyasının siyasəti, Zaqafqaziyada hakimiyyət qurumları və qaçqınlıq problemi və Azərbaycan Cümhuriyyəti dövründə qaçqınlara dair siyasəti

[41] Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998; Azerbaycan Cumhuriyyeti. 1918-1920. Osmanlı arşiv belgeleri. İstanbul, 2018; Azerbaycan Cumhuriyyeti Osmanlı basınında. 1918-1920. İstanbul, 2018.

[42] "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920). I-III cc. Bakı, 2015-2017.

öyrənməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– Çar hökumətinin və Müvəqqəti hökumətin qaçqınlara dair siyasətinin xarakteristikası;

– Rusiyada bir-birini əvəz edən siyasi hakimiyyətlərin - çar, Müvəqqəti hökumət və bolşeviklərin Osmanlı ərazisini tərk etmiş ermənilərin onun işğal edilmiş ərazilərinə qayıtması məsələsində siyasətinin araşdırılması;

– Zaqafqaziya hökuməti və Seymin müsəlman fraksiyasının qaçqınlara dair siyasətinin tədqiq edilməsi;

– Cümhuriyyət hökuməti və Parlamentin qaçqınlar probleminin həlli sahəsində fəaliyyətinin araşdırılması;

– Cümhuriyyətin Ermənistan və Gürcüstan ilə münasibətlərində qaçqınlıq probleminin yerinin müəyyən edilməsi.

**Tədqiqat metodları.** Tədqiqat işinin nəzəri əsasını tarixi inkişafın dərk edilməsi, hər bir ölkənin tarixinin ümumi qanunauyğunluq və konkretliyə malik olmasını əks etdirən baxışlar təşkil edir. Mövzu işlənərkən ümumelmi metodlar olan sintez və analizdən, həmçinin konkret elmi, yaxud ən çox tarixdə tətbiq olunan genetik (qaçqınlar probleminin kökündən etibarən nəzərdən keçirilməsi) və tarixi-müqayisə metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

– Tədqiq edilən xronoloji çərçivədə Şimali Azərbaycanda dəyişən siyasi sistemlər şəraitində (çar hakimiyyəti, Müvəqqəti hökumət, Zaqafqaziya hökuməti, Zaqafqaziya Demokratik Federativ Respublikası (ZDFR) və Azərbaycan Xalq Cümhuriyyəti) qaçqınlığın səbəblərinin müqayisəli təhlili və xüsusiyyətlərinin müəyyən edilməsi;

– Çar hökumətinin qaçqınlara dair siyasətinin formalaşması və xarakteristikası;

– Müvəqqəti hökumətin qurulması və qaçqınlara dair siyasətdə meydana gələn dəyişikliklərin əsas istiqamətləri;

– Rusiya imperiyasının süqutu və Cənubi Qafqazda yaranan Zaqafqaziya hökuməti və Seyminin, həmçinin ZDFR-in qaçqınlara dair siyasətinin əsas istiqamətləri və nəticələrinin müəyyən edilməsi;

– Azərbaycan Cümhuriyyətinin qurulması, Milli Şuranın, hökumətin və parlamentin qaçqınlara dair siyasətinin qanunvericilik bazasının yaradılması və həyata keçirilməsi məsələləri;

– 1914-1920-ci illərdə Şimali Azərbaycanda qaçqınlıq və xüsusilə, qaçqınlara dair dövlət siyasətinin Azərbaycanın qaçqınlıq tarixində yerinin müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində 1914-1920-ci illərdə Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasəti ilk dəfə olaraq araşdırılmışdır. Bunun nəticəsində:

– Rusiya imperiyası-çar hakimiyyəti və Müvəqqəti hökumət dövründə, o cümlədən bolşevik hakimiyyətinin ilk mərhələsində Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasətinin etnik ayrıseçkiliyə əsaslandığı və azərbaycanlı-müsəlman qaçqınların diskriminasiyaya məruz qaldığı müəyyən edilmişdir;

– Zaqafqaziya hökumətinin azərbaycanlı-müsəlman qaçqınların taleyinə biganəlik göstərdiyi, yalnız Zaqafqaziya Seyminin müsəlman fraksiyasının bu sahədə ciddi səylər göstərməsi aşkar edilmişdir;

– Azərbaycan Cümhuriyyətinin yaradılmasından sonra qaçqınlıq probleminin həlli sahəsində sistemli dövlət tədbirlərinin həyata keçirilməsi, bu sahənin strukturlaşdırılması, Parlamentdə müzakirələri və qanunların qəbul edilməsi göstərilmişdir;

– Cümhuriyyətin xarici siyasətində Ermənistan və Gürcüstan, o cümlədən digər dövlətlər ilə münasibətlərində qaçqınlar probleminin yeri və rolu müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin elmi müddəa və nəticələri qaçqınlıq probleminə dair nəzəri baxışların coğrafi (Şimali Azərbaycan nümunəsində) və siyasi sistemlərin dəyişməsinin rolu baxımından təkmilləşdirilməsinə yardım edir. Qaçqınlıq probleminə dair dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi üçün tarixi material verir. Bu elmi müddəa

və nəticələrdən istər ümumdünya, istərsə də Azərbaycanda qaçqınlıq tarixinə, Azərbaycan tarixinin müvafiq dövrünə dair ümumiləşdirici əsərlər yazılmasında istifadə oluna bilər. Dissertasiyanın materialları əsasında universitetlərin tarix fakültəsində və qaçqınlar ilə iş sahəsində çalışan sosial işçilər hazırlığında xüsusi kurslar təşkil etmək olar.

**Aprobasiya və tətbiqi.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas elmi müddəaları və nəticələri iddiaçının nəşr edilmiş elmi məqalələrində, respublika və beynəlxalq konfranslardakı məruzələrində əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA Tarix institutunda yerinə yetirilib.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya 285697 (ədəbiyyat siyahısı və cədvəllər istisna olmaqla) işarədən ibarətdir: (Giriş: işarə sayı – 23640, I fəsil: işarə sayı – 99550, II fəsil: işarə sayı-36984 , III fəsil: işarə sayı – 114711, nəticə: işarə sayı – 9358).

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və öyrənilmə səviyyəsi təhlil edilmiş, metodoloji əsasları, elmi yeniliyi, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiyanın **"Şimali Azərbaycanda qaçqınlıq və Rusiya imperiyasının siyasəti (1914-1917-ci illər)"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. ***"Qaçqınlığın meydana gəlməsi və çar hökumətinin qaçqınlar siyasətinin formalaşması (1914-1917, fevral)"*** adlı birinci yarımfəsildə I Dünya müharibəsinin başlanması, qaçqınlıq probleminin meydana gəlməsi, qaçqınlara dair statistika, çar hökumətinin ilk tədbirləri, Tatyana komitəsinin, Ümumrusiya zemstvo və şəhər ittifaqlarının fəaliyyəti, dövlətin

qaçqınlara dair siyasətində ictimai təşkilatlardan dövlət tənzimlənilməsinə keçməsi və s. məsələlər araşdırılır.

Rusiya imperiyasında ilk qaçqınlar Qərb cəbhəsinin əhatə etdiyi ərazilərdə yaransa da, tədricən Qafqaz cəbhəsi və İran kampaniyası bölgələrini də əhatə etmişdi. Rusiya imperiyasında qaçqınların sayı müxtəlif hesablamalara görə 5-10 milyon intervalında dəyişmişdir[43]. Rusiyanın işğal etdiyi Osmanlı və digər müsəlman ərazilərindən 850 min nəfərdən çox müsəlman qaçqına çevrilmişdi[44]. Qafqaz canişinliyi ərazisində olan qaçqınların böyük hissəsi məhz Şimali Azərbaycanın payına düşürdü.

Çar hökuməti müharibənin ilk dövründən qaçqınlar probleminin miqyasını, onun nəticələrini əvvəlcədən tam şəkildə müəyyən edə bilmədi. Hökumət qaçqınlara kömək işini ilk olaraq ictimai təşkilatlar vasitəsilə həyata keçirməyə başladı. Xəstə və yaralı döyüşçülərə kömək Ümumrusiya şəhərlər ittifaqı (1914, 8-9 avqust) və Xəstə və yaralı döyüşçülərə kömək Ümumrusiya zemstvo ittifaqı (11 avqust) ilk belə təşkilatlardan idilər. Xeyriyyə təşkilatları da bu işə cəlb edilmişdi. Bu təşkilatların yaranan problemi həll edə bilməyəcəyi aydın olsa da, eyni xətt davam etdirildi. Bu dəfə1914-cü il sentyabrın 14-də çar II Nikolayın ikinci qızı, böyük knyaginya 17 yaşlı Tatyana Nikolayevnanın Hərbi fəlakətlərdən zərər çəkənlərə müvəqqəti kömək komitəsi (Tatyana komitəsi) yaradıldı. Əsas diqqət Tatyana komitəsinin Qafqazda, xüsusilə Şimali Azərbaycandakı fəaliyyətinə yönəldilir.

Komitə Qafqazda öz işini, Müharibədən zərərçəkənlərə yardım üzrə Baş Qafqaz Komitəsi vasitəsilə həyata keçirirdi. Bakı quberniyasından həmin komitəyə göndərilən teleqramlar (25 dekabr 1914 və 12 iyun 1915-ci il) və ya əksinə, yuxarı orqandan daxil olan müraciətlər (15 noyabr 1915-ci il) əsasında quberniya miqyasında bu işin təşkili vəziyyəti araşdırılır.  Bakı şəhər rəisliyi və

---

[43] Волков Е. Динамика народонаселения СССР за восемьдесять лет., с.75; Поляков Ю. Советская страна после окончания гражданской войны: территория и население., с.100-101.

[44]Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). Üç hissədə. I hissə., s.224.

onun tərkib hissəsi kimi Balaxanı-Sabunçu polismeysterliyi üzrə sənədlər isə burada olan qaçqınların sayı, etnik tərkib üzrə yaş qrupu haqqında məlumat verir[45].

Qaçqınlara köməyi Ümumrusiya şəhərlər ittifaqı və Ümumrusiya zemstvo ittifaqı da həyata keçirmişdir. Bu ittifaqların da ümumən qaçqınlara, o cümlədən Qafqaz və Şimali Azərbaycandakı qaçqınlar üzrə işləri hərtərəfli tədqiq edilmişdir.

İctimai təşkilatlar ilə birgə, dövlətin də qaçqınlara dair tədbirləri ətraflı araşdırılmışdır. 1915-ci ildə rus ordusunun Qərb cəbhəsində geri çəkilməsi və kütləvi miqrasiyalar qaçqınların vəziyyətinin hüquqi-normativ cəhətdən təmin edilməsini tələb edirdi. İyul ayında hökumət və Dövlət Duması qaçqınların hüquqi vəziyyəti ilə bağlı müzakirələr aparırdı. 30 avqust 1915-ci ildə Dövlət Şurası və Dövlət Duması "Qaçqınların ehtiyaclarının təmin edilməsi haqqında" qanun layihəsini təsdiqlədi və çar imzaladıqdan sonra qüvvəyə mindi. Bu qanun və onun həyata keçirilməsinin təhlili verilmişdir.

Yeni dəyişikliklərin Qafqazda qaçqınların işinin təşkilinə təsiri də nəzərdən keçirilmiş və müəyyən edilmişdir ki, 1915-ci il 30 avqust qanununun qəbul edilməsinədək Qafqazda qaçqınların işi ilə Qafqaz canişini nəzdində baş müvəkkil məşğul olur, bütün yazışmalar canişin dəftərxanası ilə həyata keçirilirdi. Qanunun qəbulundan sonra, 1915-ci ilin noyabrında öz ştatı ilə Qafqaz cəbhəsi qaçqınlarının təşkili üzrə baş müvəkkilin dəftərxanası təsis edildi. Baş müvəkkil Qafqaz canişinin səlahiyyətində olan vilayət və rayonlarda qaçqınların hərəkəti, köçürülməsi və yerləşdirilməsi işlərini təyin edir, həmçinin rus qoşunlarının işğal etdiyi ərazilərdəki qaçqınlara ərzaq və tibbi-sanitariya yardımı göstərmək üçün tədbirlər gördü.

***"Çarizmin qaçqınlara dair siyasətində milli təşkilatların yeri"*** adlı ikinci yarımfəsildə çar hökumətinin qaçqınlara dair siyasətində xeyriyyə cəmiyyətləri və milli komitələrin fəaliyyətinə yer verməsinin səbəbləri, Şimali Azərbaycanda bu təşkilatların fəaliy-

---

[45] Сведения от Бакинского Полицеймейстера Ротмистра к столоначальнику (Баку: 1-31 декабря 1916 г.) // ARDTA, F. 46, siyahı № 2, iş 235, v.1-4, 9.

yətlərinin əsas istiqamətləri nəzərdən keçirilir. Onların içərisində Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti (Nizamnaməsi 1905-ci il oktyabrın 10-da Vorontsov - Daşkov tərəfindən təsdiq edilmişdir)[46] mühüm rola malik idi. Cəmiyyət əvvəllər başlıca olaraq Bakı və onun ətraf ərazilərində fəaliyyət göstərirdi. Sənədlərdən aydın olur ki, cəmiyyət müharibənin başlanması dövründə öz nizamnaməsində bəzi dəyişiklik edərək, Qafqaz cəbhəsindən qaçqın düşənlərə, ata-analarını itirmişlərə, əsir düşmüş türk əsgərlərinə yardım etmiş, bu sahədə təqdirəlayiq işlər görmüşdür.

Dissertasiya işində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qaçqınlara dair fəaliyyəti, o cümlədən rus işğalına məruz qalan türk şəhər və qəsəbələrinə yardımı ətraflı təhlil edilir.

I Dünya müharibəsinin başlaması ilə döyüş bölgələrindən İrəvan bölgəsinə, xüsusilə Sürməliyə müsəlman türk qaçqınlar gəlməyə başladı. Qars, Sarıqamış, Kağızman, Ərdahan, Oltu və digər yerlərdən 1915-ci ilin əvvəlindən etibarən İrəvan bölgəsinə 5000-dən artıq müsəlman qaçqın gəlmişdir ki, onların böyük əksəriyyətini uşaqlar və qadınlar təşkil edirdi[47]. Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti ilə İrəvan Müsəlman Xeyriyyə Cəmiyyəti arasında qarşılıqlı əlaqələr və Yelizavetpol (Gəncə) Xeyriyyə Cəmiyyətinin fəaliyyəti də ətraflı araşdırılır. Beləliklə, Qafqazda qaçqınlara geniş dövlət köməyi olmadığından, bu iş yalnız milli xeyriyyə cəmiyyətləri və yerli komitələr tərəfindən edilirdi.

***"Müvəqqəti hökumətin qaçqınlar siyasəti (1917, mart-oktyabr)"*** adlı üçüncü yarım fəsildə Fevral inqilabı nəticəsində Rusiya imperiyasında çar hakimiyyətinin süqutu, Müvəqqəti hökumətin qurulması, onun qaçqınlar üzrə siyasətinin əsas istiqamətləri və Şimali Azərbaycanda həyata keçirilməsinin xüsusiyyətləri nəzərdən keçirilir. Müvəqqəti hökumət qurulduqdan sonra qaçqınlara dair çarizmin siyasətində dəyişiklik etməyə başladı. Dissertasiya işində

---

[46] Cavadov C. Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə)., s. 29.

[47] Aslan B. 1. Dünya Savaşı Esnasında "Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriyesi"., s. 261.

Müvəqqəti hökumətin qaçqınlara dair işlərin təşkili məqsədi ilə həyata keçirdiyi dəyişikliklər araşdırılmışdır. 1917-ci ilin fevralından oktyabr ayına qədər qaçqın işini "demokratikləşdirmək" və "sovetləşdirmək" cəhdləri edilmişdir. Yerli qaçqın sovetləri meydana gəlmiş, iki ümumrusiya qaçqın qurultayı keçirilmiş, Ümumrusiya qaçqın ittifaqı qurulmuş, lakin bu tədbirlər praktiki nəticələr verməmişdir. Bolşeviklərin çevrilişindən sonra qaçqın işi üzrə köhnə dövlət-ictimai təşkilatları bir neçə ay içində tamamilə ortadan qalxdı.

Müvəqqəti hökumət Cənubi Qafqazda qaçqın işində əhəmiyyətli dəyişiklik etmədi. Azərbaycan ərazisində olan qaçqınlara kömək Tatyana komitəsinin Qaçqınların Qeydə Alınması üzrə Bakı Komitəsi, Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkilliyin Bakı şöbəsi və s. cəmiyyət və komitələr vasitəsilə edilirdi.

1917-ci il oktyabr çevrilişindən sonra, Müvəqqəti hökumətin qaçqınlara dair təşkilatları yeni qurulan sovet hakimiyyəti tərəfindən ləğv edildi. Beləliklə, Rusiya imperiyası tərəfindən qaçqınlara dair sistemli siyasətin formalaşdırılması mümkün olmadı.

**"Zaqafqaziya hökuməti dövründə qaçqınlıq problemi (1917, noyabr-1918, may)"** adlanan ikinci fəsil iki yarımfəsildən ibarətdir. ***"Zaqafqaziya hökuməti və Seymin müsəlman fraksiyasının qaçqınlara dair siyasəti"*** adlı birinci yarımfəsildə Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra baş verən siyasi hadisələr, 1917-ci il noyabrın 15-də Zaqafqaziya komissarlığının təşkili, onun, sonra isə 1918-ci il fevralın 28-də yaradılmış Zaqafqaziya Seymi və Zaqafqaziya hökumətinin qaçqınlıq problemi üzrə fəaliyyəti tədqiq edilmişdir. Dissertasiya işində qeyd edilir ki, 1917-ci ilin sonlarından ermənilər tərəfindən İrəvanda, Qarabağ və Zəngəzurda azərbaycanlılara qarşı soyqırımı aktları törədilməsi genişlənir, bununla da onlar qaçqınlara çevrilir. Azərbaycan nümayəndələrinin təkidi ilə Zaqafqaziya Seyminin iclaslarında dəfələrlə ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər və qaçqınların öz yerlərinə qaytarılması məsələsi müzakirə edilmişdir. Bu müzakirələr (1918, 20 mart və s.) olduqca gərgin keçmişdir.

Qaçqınlıq probleminin həllinə dair müzakirələrdə Zaqafqaziya Seyminin Müsəlman fraksiyası mühüm rol oynamışdır. Bu fraksiyanın iclaslarında (1918, 10 aprel) qaçqınlıq məsələsinə dair müzakirələr sənədlər əsasında araşdırılmışdır. Müəyyən edilmişdir ki, Müsəlman fraksiyasının fəaliyyət göstərdiyi iki ay doqquz gündə keçirdiyi 20 iclasın 4-də qaçqınlar problemi müzakirə edilmişdir.

Zaqafqaziya Seyminin Müsəlman fraksiyası Seymin rəhbərliyinin azərbaycanlı qaçqınlara münasibətdəki biganəliyinə də ciddi narazılığını bildirirdi. Belə ki, 1918-ci ilin aprelin 1-də Zaqafqaziya Seyminin iclasında Cənubi Qafqaz hökumətinin azərbaycanlı nazirləri etiraz əlaməti olaraq hökumətin tərkibindən çıxdıqlarını elan etmişdilər. 1918-ci ilin mart-aprel hadisələri sonda Cənubi Qafqazda dövlətçilik sisteminin tənəzzül etməsinə gətirib çıxardı.

***"Zaqafqaziya Demokratik Federativ Respublikası və qaçqınlıq problemi"*** adlı ikinci yarımfəsildə bu respublikanın yaradılmasının səbəbləri, yeni hökumətin tərkibi, ZDFR dövründə qaçqınlar probleminin vəziyyəti və bu sahədə görülən tədbirlər tədqiq edilmişdir. ZDFR dövründə də Seymin azərbaycanlı deputatları qaçqın düşmüş müsəlmanların acınacaqlı vəziyyətini dəfələrlə müzakirə etmiş, onların problemlərinin aradan qaldırılmasını tələb etmişdilər. Zaqafqaziya Seyminin 1918-ci il mayın 2-də keçirilən iclasında qaçqınlar məsələsi müzakirə edilmişdir. Azərbaycanlı nümayəndənin çıxışından aydın olur ki, qanun layihəsində komissiyanın Bakı, İrəvan quberniyaları və Şamaxı qəzası nəzərə alınmamışdır. İrəvan quberniyasında qaçqınların sayının 100 min nəfəri keçməsi, Yelizavetpol quberniyasında 100 mindən çox, Şamaxı qəzasında 150 min nəfərdən çox qaçqın olması diqqətə çatdırılmışdır. Müzakirələr zamanı Zaqafqaziya qaçqınlarına kömək edilməsi üçün ayrılan 10 milyon məbləğin 15 milyon rubla qaldırılması təklif edilir və çoxsaylı müzakirələrdən sonra qanun layihəsi təsdiqlənir[48].

[48] Закавказский Сейм. Стенографический отчет., с. 12-16.

Seymdə bütün müsəlman fraksiyalarının mayın 13-dəki iclasında müzakirə mövzularından biri də müsəlman qaçqınlara köməklik edilməsi oldu. İclasda "Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının Qaçqınlar şöbəsi" yaradılması qərara alındı[49]. Müsəlman fraksiyasının mayın 22-də keçirilən növbəti iclasında Kürdəmir rayonunun qaçqınları üçün əlli min rubl verilməsi qərara alındı[50]. Bütövlükdə, ZDFR də qaçqınlar məsələsinin həllində əsaslı addım ata bilmədi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə bu irs ona keçdi.

**"Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaçqınlara dair siyasət (1918, may-1920, aprel)"** adlı üçüncü fəsil dörd yarımfəsildən ibarətdir. ***"Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və Milli Şuranın qaçqınlara dair tədbirləri"*** adlı birinci yarımfəsildə Cümhuriyyətin yaradılması və Milli Şuranın fəaliyyətinin əsas istiqamətlərində qaçqınlar üzrə problemin həllinin yeri məsələsi tədqiq edilir.

Milli Şuranın Tiflisdə iyun ayının 1, 7 və 13-də keçirilən iclaslarında qaçqınlar ilə bağlı məsələlər də diqqət mərkəzində olmuşdur. İrəvanın ermənilərə verilməsindən sonra, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində qaçqınların sayının 150 min nəfərə çatması, bununla əlaqədar olaraq tədbirlər görülməsi zərurəti müzakirə edilmişdir.

***"Cümhuriyyət hökumətinin qaçqınlar probleminin həlli sahəsində siyasəti"*** adlı ikinci yarımfəsildə qaçqınlar probleminin həlli ilə əlaqədar olaraq dövlət qurumlarının yaradılması, onların fəaliyyəti və hökumətin həyata keçirdiyi tədbirlər nəzərdən keçirilir. Cümhuriyyətin qurulması və hökumətin Gəncəyə köçməsindən sonra Bakı XKS-nın respublikaya qarşı başladığı müharibə də qaçqınlığın yeni mənbəsinə çevrildi. Cümhuriyyət hökuməti bu mürəkkəb vəziyyətdə problemin həlli istiqamətində siyasi xəttinin müəyyən edilməsi və reallaşdırılmasına xüsusi önəm verirdi. 1918-ci il iyunun 17-də Xalq Səhiyyəsi və Himayədarlıq Nazirliyi

---

[49] Протокол заседания Закавказскаго Центральнаго Мусульманского Совета (Тифлис: 16 мая 1918 года) // ARDA, F. 970, siyahı 1, iş 1, v. 41-42.
[50] Yenə orada, v. 42.

(Ümuri Xeyriyyə) təsis edilmişdi. 1918-ci il sentyabrın 15-də Bakı Qafqaz İslam Ordusu və Azərbaycan ordusunun birgə əməliyyatı nəticəsində azad edildikdən sonra Cümhuriyyət hökuməti Gəncədən Bakıya köçdü və oktyabrın 6-da Fətəli xan Xoyskinin hökumətində dəyişikliklər edildi. Nəticədə Xalq Səhiyyəsi və Himayədarlıq Nazirliyi Səhiyyə və Himayədarlıq nazirliklərinə bölündü. Qaçqınlar problemi ilə Himayədarlıq Nazirliyi məşğul olmağa başladı. N.Yusifbəylinin 1919-cu il dekabrın 24-də təşkil etdiyi beşinci hökumət kabinəsində Himayədarlıq və Səhiyyə nazirliyi birləşdirildi[51].

Dissertasiya işində qeyd edilən nazirliyin qarşısında qoyulan vəzifələr, strukturu və kadr potensialı araşdırılır, həyata keçirilən tədbirlər müəyyən edilir, qaçqınlara dair statistik materiallar göstərilir və onun dinamikası nəzərdən keçirilir.

Azərbaycan hökuməti yalnız daxildəki qaçqınların deyil hələ də Ermənistanda qalmış müsəlman qaçqınların vəziyyətini yüngülləşdirmək üçün də tədbirlər görürdü. Bununla bağlı hökumət bir sıra qanunlar (1919, 17 fevral; 28 fevral; 30 aprel və 19 may) qəbul etmişdir. Həmin qanunlar işdə ətraflı təhlil edilir.

Hökumət Ermənistandakı müsəlman qaçqınların vəziyyətini yaxşılaşdırmaq üçün 1919-cu il 2 iyun tarixli fərmanı ilə İrəvanda Himayədarlıq Nazirliyinin Müvəkkili vəzifəsini təsis etdi[52]. Ermənistandakı qaçqınlara yardımla bağlı digər qanun 1919-cu il iyunun 6-da qəbul edilmişdi. "Rüsumsuz olaraq 10 min pud un və buğdanın Ermənistandakı müsəlman qaçqınların ehtiyaclarını ödəmək üçün buraxılması" haqqında qanununa əsasən Maliyyə nazirinə 10 min pud un və buğdanın Ermənistan sərhədlərinə rüsumsuz olaraq göndərməsinə dair təlimat verilirdi[53].

Azərbaycan hökumətinin əsas işlərindən biri də qaçqınların yerləşdirilməsi ilə bağlı idi. 1919-cu il noyabrın 8-də hökumət tərəfindən "Qaçqınların məskunlaşdırılması üçün təcili tədbirlərin

---

[51] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild., s. 428.

[52] Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты., с. 323.

[53] Yenə orada, с. 324.

görülməsi haqqında" qərar qəbul edilmişdi[54]. 1919-cu il dekabrın 25-də "Qaçqınların Ağdaş, Göyçay, Qazax və Nuxa qəzalarına köçürülməsi barədə" qərar ilə Himayədarlıq nazirliyinin hesabatına əsasən hökumət qaçqınların problemini həll edərək, bu qaçqınları Ərəş, Nuxa, Göyçay və Qazax qəzalarına, dəmir yol stansiyalarına yaxın ərazilərə köçürmək qərara alınır. Qaçqınların əkin sahələri üçün 6 milyon rubl tələb olunurdu[55].

Azərbaycan Cümhuriyyətinin 1920-ci il üzrə Təqvim ünvanında hökümətin ayrı-ayrı bölgələr üzrə işinin nəticələri ümumiləşdirilmişdir. Buradan aydın olur ki, məhdud imkanlara baxmayaraq, Cümhuriyyət hökuməti qaçqınların problemini həll etmək üçün böyük təşkilatçılıq işi ilə birgə, xeyli maddi resurs səfərbər etmiş və ondan səmərəli istifadəyə nail ola bilmişdir.

***"Cümhuriyyət Parlamentində qaçqınlara dair müzakirələr və qanunvericilik fəaliyyəti"*** adlı üçüncü yarımfəsildə parlamentin fəaliyyətə başlaması, burada qaçqınlar haqqında müzakirə edilən qanun layihələri, qəbul edilmiş qanunlar və onların əhəmiyyətindən bəhs edilir. Parlamentin stenoqrafik hesabatlarından aydın olur ki, qaçqınlar məsələsi üzrə layihələr ciddi müzakirəyə səbəb olmuş, bu müzakirələr zamanı qaçqınlığın səbəbləri, coğrafi mənbələri, yerləşdirilməsi, maddi yardım və s. üzrə xeyli faktlar dilə gətirilmişdir. Bu faktlar və qanunvericilik sənədləri müəyyən edilmiş və ətraflı təhlil olunmuşdur.

Parlamentin fəaliyyət müddətində 145 iclas keçirilmişdir ki, onun 30-dan çoxunda bu və ya digər şəkildə qaçqınlar məsələsi müzakirəyə çıxarılmışdır. Bu işdə Azərbaycan parlamenti hökumətlə bərabər səy göstərərək problemin həll yollarını tapmağa çalışmışdır. Bu səbəblə Azərbaycan hökuməti parlamentə Zəngəzur qaçqınlarına 3 aylıq yardım və qidalanma daxil olmaqla 18750000 manat həcmində kredit ayrılması; 1919-cu ilin mayında Ermənistanın müsəlman əhalisinə yardım edilməsi barədə və s. bu kimi qanun layihələrini təqdim etmişdir. Müzakirə olunan məsələlərə parlamentin deputatları birmənalı münasibət bildirmir, qaçqınlara edi-

---

[54] Yenə orada, c. 376.
[55] Yenə orada, c. 391.

ləcək yardımın formasına etiraz edirdilər. Deputatların bəziləri qaçqınlara pulla yardımın tərəfdarı idisə, digərləri onların işlə, evlə təmin olunmasını istəyirdilər. Onlar qaçqınlara yardım üçün uzun müddətli proqramların qəbul edilməsini istəyirdilər. Fikir müxtəlifliyinə baxmayaraq, parlamentdə hökumət tərəfindən təklif edilmiş qanun layihələri qəbul edilmiş və dərhal müəyyən yardımlar həyata keçirilmişdir. Hökumətlə bərabər qaçqınlara yardım məqsədilə, parlament özü "Ermənistanda olan müsəlman qaçqınlara 3 milyon rubl ayrılması (18 iyul, 1919-cu il)","Qayət dərəcədə möhtac qaçqınların cümhuriyyətin ərazisində yerləşdirilməsi və onlara toxumluq taxıl tədarükü üçün smetadan kənar Himayədarlıq nazirliyinə 21 milyon rubl buraxılması (8 yanvar 1920-ci il)", "Epidemiya ilə mübarizə və qaçqınlara tibbi yardımın göstərilməsi üçün 12 epidemik dəstənin təşkili (26 fevral 1920-ci il)" kimi qanunları hazırlamışdır. Azərbaycan hökuməti kimi Azərbaycan parlamenti də qaçqınlara yardımı milli ayrı-seçkiliyə yol vermədən həyata keçirirdi.

***"Cümhuriyyətin Ermənistan və Gürcüstan ilə münasibətlərində qaçqınlıq problemi"*** adlı dördüncü yarımfəsildə müstəqilliyin elan edilməsindən sonra, Cənubi Qafqaz dövlətləri arasında olan sərhəd məsələləri, ərazi iddiaları uğrunda mübarizənin orada yaşayan əhalinin qaçqınlara çevrilməsinə təsiri, dövlətlərarası münasibətlərdə qaçqınlıq məsələsinin yeri araşdırılmışdır.

1919-cu ilin fevral ayının 21-də Gürcüstanın Xarici işlər naziri Azərbaycan hökumətinə nota ilə müraciət edib, qonşu ölkələr arasında dəmiryol hərəkətini, poçt və teleqraf mübadiləsi sahəsindəki problemləri, gömrük, maliyyə və mal mübadiləsi məsələlərini müzakirə etmək üçün Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikasının yüksək səlahiyyətli nümayəndələrindən ibarət konfransın keçirilməsini təklif etdi. Azərbaycan hökuməti bu müraciəti qəbul edərək, mart ayının 5-də daha altı təklifi konfransın müzakirəsinə təqdim etdi. Bu təkliflərin altıncı bəndi qaçqınlar məsələsinə həsr edilmişdi. Qafqaz konfransının ən mühüm nəticələrindən biri ərazi-sərhəd məsələlərinin həlli prinsiplərinin müəyyən edilməsi, birgə bon buraxılması, maliyyə və iqtisadi məsələ-

lərdə bir sıra razılaşmaların əldə edilməsi idi. Qaçqınların öz əvvəlki yerlərinə qaytarılması üçün Dövlətlərarası Komissiyanın yaradılması bu problemin həllində mütərəqqi addımlardan biri idi. 1919-cu il mayın 20-də Zaqafqaziya konfransının Qaçqınlar Komitəsi öz işinə başladı[56]. Lakin qısa müddət sonra, 1919-cu ilin iyununda Qafqaz konfransı öz işini dayandırdı, bu ilk növbədə, Könüllü ordunun cənuba doğru irəliləməsi və Dağıstan üzərinə hücumu ilə bağlı idi. Denikinin Dağıstana soxulması Azərbaycan Respublikası və müəyyən dərəcədə Gürcüstan üçün təhlükə törədirdi. Elə bu zəmində də 1919-cu ilin yayında iki respublikanın yaxınlaşması başladı və bu yaxınlaşma strateji əməkdaşlıq səviyyəsinə yüksəldi. Hətta, 1919-cu ilin sonlarında Dağlılar Respublikası ərazisində baş vermiş hərbi əməliyyatlar nəticəsində Dağıstandan Azərbaycana gəlmiş qaçqınlara nazirlik bir milyon manatlıq maddi yardım göstərmişdir[57].

Qaçqınlar məsələsində ən kəskin problemlər Ermənistan ilə bağlı idi. 1919-cu il iyunun 23-də Azərbaycan tərəfindən Ermənistanın xarici işlər nazirinə göndərilən teleqramda qaçqınlar probleminin həlli və Ermənistanın Azərbaycanla münasibətlərinin nizamlanması üçün hər iki respublikanın nümayəndələrindən ibarət qarışıq parlament-hökumət komissiyasının yaradılmasını təklif edildi. Belə bir komissiya yaradılsa da, Ermənistan tərəfi Azərbaycan nümayəndələrinə araşdırma aparmaları üçün heç bir şərait yaratmadı və komissiyanın fəaliyyəti nəticəsiz qaldı[58]. 1919-cu ilin dekabrında Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransı da bir sıra məsələlər kimi qaçqınlar məsələsini də müzakirə etdi[59], lakin real nəticələr əldə edilmədi.

---

[56] Проект создания Закавказской Конфедерации // ARPİİİSSA, Fond 276, siyahı 3, iş 231, vərəq -10.

[57] Адресь – Календарь Азербайджанской Республики на 1920-й г., с. 255.

[58] Mustafa N., İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920). Bakı: 2017, s. 85

[59] Протокол № 1. Частного совещания членов Азербайджано-Армянской конференции (13 декабря 1919) //ARDA, Fond 970, siyahı, iş 95, v. 43-45.; Протокол № 2. Частного совещания членов Азербайджано-Армянской конференции (17 декабря 1919) //ARDA, Fond 970, siyahı 1, iş 95, v. 46-48.

Tədqiqat nəticəsində aydın olmuşdur ki, qaçqınlar problemi Cümhuriyyətin Ermənistan və Gürcüstan ilə münasibətlərində xüsusi yer tutmuş, bu problemin həlli üçün geniş diplomatik fəaliyyət göstərilmiş, ölkədəki ağır vəziyyətə baxmayaraq, hökumət Gürcüstan və Ermənistan ərazilərində yaşayan azərbaycanlı əhaliyə də müntəzəm yardım etmişdi. 1919-cu ilin əvvəllərindən 1920-ci ilin əvvəllərinə qədər təkcə Ermənistanın azərbaycanlı əhalisinə yardım göstərilməsinə aid 6 qərar qəbul edilmişdi. Onu da qeyd etmək lazımdır ki, öz tarixi ənənələrinə sadiq qalan Azərbaycan hökuməti, milliyyətindən asılı olmayaraq, sosial vəziyyəti ağır olan bütün insanlara yardım göstərirdi.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın nəticələri göstərilmiş, əsas müddəalar qruplaşdırılmış, öyrənilən hadisələrin müasir dövrlə əlaqəsi müəyyənləşdirilmiş, tövsiyə və təkliflər verilmişdir.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Çar hökuməti və Qafqaz cəbhəsi qaçqınları (1914-1917, fevral) // Qafqazşünasların I Beynəlxalq Forumu. Elmi məruzələr. Bakı, 17-18 aprel 2017. s. 234-239.

2. Rusiya imperiyasının Qafqaz cəbhəsi qaçqınlarına münasibətdə etno-konfessional ayrı-seçkilik siyasəti (1914-1917-ci illər) //AMEA Tarix İnstitutu Elmi Əsərlər. "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş IV beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış. № 64, 65, 66. Lənkəran, 22-27 aprel 2017. s. 392-397.

3. Zaqafqaziya Seyminin müsəlman fraksiyası qaçqınlıq problemi haqqında (1918, mart-may) //"Qarabağ dünən, bu gün və sabah" 16-cı elmi-əməli konfransının materialları toplusu. Bakı, 2017. s. 212-217.

4. Rusiya imperiyasının qaçqınlara dair siyasi-hüquqi fəaliyyəti: formalaşması və əsas istiqamətləri (Birinci Dünya Müharibəsi dövrü) // Tarix və onun problemləri. № 3. Bakı, 2017. s. 84-89.

5. I dünya müharibəsi dövründə Osmanlıdan Qafqaza erməni miqrasiyası: tarixşünaslığa dair // İNOCTE 2017. II uluslararası Osmanlı araşdırmalarında yeni eğilimlər kongresi. Doğu ve Batı Türklüğünün Ortak Tarihî Devirleri ve Münasebetleri. Baku, 12-14 eylül 2017. s. 43-51.

6. Müasir dövrdə Yaxın Şərq dövlətlərindən qaçqınlıq: səbəbləri, dinamikası və istiqamətlərinə dair // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda beynəlxalq elmi konfrans. (16-17 oktyabr 2017-ci il, Bakı). Tezislər. Bakı, 2017. s. 65-66.

7. Rusiyanın erməni qaçqınların Osmanlı dövlətinin işğal edilmiş ərazilərinə qayıtması məsələsində siyasətinə dair. (1915-1918-ci illər) // Gənc alimlərin II beynəlxalq elmi konfransı. 26-27 oktyabr 2017-ci il. Gəncə, 2017. s. 140-142.

8. Azərbaycan Xalq Cümhuriyyəti və qaçqınlar problemi: hüquqi sənədlər və onların təhlili //"Qarabağ dünən, bu gün və sabah" 17-ci elmi-əməli konfransının materialları toplusu. Bakı, 2018. s. 189-195.

9. О деятельности Комитета Татьяны в Северном Азербайджане (1914, сентябрь-1917, февраль) // Гилея. Випуск 132 (№ 5). Киев, 2018. с. 141-145.

10. Cümhuriyyətin qaçqınlara dair fəaliyyətinin institutlaşdırılması: Himayədarlıq nazirliyi (1918-1920) // Bakı Universitetinin Xəbərləri. Hümanitar elmlər seriyası. № 2. Bakı, 2018. s. 206-214.

11. "Tatyana" komitəsinin Şimali Azərbaycanda fəaliyyətinə dair (1914, sentyabr-1917, fevral) //AMEA Tarix İnstitutu. Elmi Əsərlər. 73-cü cild. Bakı, 2018. s. 180-192.

12. Azərbaycandan Osmanlı dövlətinə miqrasiyalar və onun dinamikasına dair (XIX-XX əsrin əvvəlləri) // Qafqazda deportasiyalar. Respublika elmi konfransı. Tezislər. Bakı, 2018. s.70-71.

13. The Azerbaijan Democratic Republic's Refugee Crisis // VISIONS of Azerbaijan. Special Issue. 2018. p. 50-53.

14. Rusiya imperiyasının qaçqınlara dair siyasətində milli təşkilatların rolu: 1914-1917-ci illər //"Qarabağ dünən, bu gün və sabah" 18-ci elmi-əməli konfransının materialları toplusu. Bakı, 2019. s. 211-222.

15. Rusiya imperiyası Müvəqqəti hökumətinin Azərbaycanda qaçqınlara dair siyasəti (1917, mart-oktyabr) // Yeni Türkiyə Dergisi, №108, Ankara 2019, s.192-198.

16. Ermənistan (Ararat) respublikasının müsəlman qaçqınlara qarşı terror fəaliyyəti: qaçqınlıq və nəticələri (1918-1920) //"Qafqazda terror" mövzusunda respublika elmi konfransı. Tezislər. Bakı, 28 noyabr 2019-cu il, s.108-109.

17. Transkafkasya'da (Güney Kafkasya) Devletlerarası İlişkiler ve Mülteci Sorunları (1918-1920) // Akademik Tarih ve Düşüncü Dergisi, 6(4), Ankara, 2019, s.2589-2604.

18. Çarlık, rusya geçici hükümeti ve sovyetler birliği'nin yürüttüğü mülteci siyaseti (1914-1922) // II. Uluslararası Türk-Rus Dünyası Akademik Araştırmalar Kongresi (UTRAK). 15– 17 Kasım 2019. Ankara: Asos yayınları 2019. s.259-269.

19. Ermənistan (Ararat) Respublikasının azərbaycanlı qaçqınlara dair siyasəti:1918-1920 // "Qarabağ dünən, bu gün və sabah" 19-cu elmi-əməli konfransının materialları toplusu, Bakı, 2020. s. 166-170.

20. I Dünya müharibəsi dövründə dövlət və Ümumrusiya ictimai təşkilatlarının qaçqınlara dair fəaliyyətində Qafqazın yeri //Qafqazşünasların II Beynəlxalq Forumu. Elmi məruzələr. Bakı, 2020. s. 218-226.

21. Rusiya imperiyasının qaçqınlara dair siyasətinin regional xarakteristikası: 1914-1917-ci illər // AMEA Tarix İnstitutunun "Elmi Əsərləri", Bakı, 2020. s. 103-113.

22. Azerbaycan Cumhuriyeti'nin ülke içinde yerinden edilmiş kişilere (köçkünler) ilişkin mevzuatı hakkında // INTERNATIONAL SYMPOSIUM "GLOBAL MIGRATION PHENOMENON"

With Its Security, Economic, Social, Political and Cultural Dimensions, 8 oktyabr 2021, s. 186-191.

23. Azerbaycanlilarin Osmanli imparatorluğu'na göçündeki yeri üzerine (xix-xx yüzyilin başlari) // 19. Yüzyildan günümüze Türkiye'ye yapilan göçler, göçmenlik ve sosyal uyum uluslararasi sempozyumu, Rize, 7-9 oktyabr 2021, s.13-22.

24. Azərbaycanda məcburi köçkünlər probleminin həlli məsələləri //Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi. Respublika elmi konfransı. Tezislər. Bakı, 14 oktyabr 2021-ci il, s.137-138.

25. Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasəti (1914-1920): tarixşünaslıq və mənbəşünaslıq məsələləri // Azərbaycan tarixşünaslığı (Elmi əsərlər), Cild 84, №1, 2023, s.129-144.

26. Cümhuriyyətin qaçqnların əməyinin təşkili sahəsində fəaliyyəti (1918-1920) // 17. ULUSLARARARASITÜRK SANATI, TARİHİ ve FOLKLORUKONGRESİ / SANAT ETKİNLİKLERİ "Akademik Naile Velihanlı Armağanı, Bakü, 05-07 Eylül, 2023, s. 415-419.

Dissertasiyanın müdafiəsi 09 fevral 2024 –ci il tarixində saat 13:00 -da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 yanvar 2024-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:07.01.2024
Kağızın formatı: A5
Həcm: 47992
Tiraj: 100